Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi
birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

Ad ________________________ Soyad ________________________

# 11-ci sinif

# TARİX

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ________________

**1.** Qacarlar dövləti ilə bağlı düzgün fikirləri müəyyən edin.

1. XX əsrin əvvəllərində bütün Cənubi Qafqazın onlara qaytarılmasını tələb edirdilər
2. Müzəffərəddin şahın dövründə konstitusiya qəbul olundu
3. Ərazisi Birinci dünya müharibəsi illərində Osmanlı və Rusiya arasında müharibə meydanına çevrildi
4. S.C.Pişəvəri hərəkatı nəticəsində ərazisinin bir hissəsi müstəqilləşdi
5. Z.Təbatəbainin çevrilişi nəticəsində dövlət ingilislərdən asılı vəziyyətə düşdü

A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 5
E) 1, 4, 5

**2.** Osmanlı vəzirinə türkcə yazdığı məktubunda osmanlılarla türkmanların eyni kökdən olduqlarını, Səfəvi torpaqlarının alicənab Türkman xalqının irsi mülkü olmasını yazmışdı:

A) Məhəmməd Xudabəndə
B) I İsmayıl
C) I Abbas
D) Ağa Məhəmməd şah Qacar
E) Nadir xan

**3.** Rusiyada Müvəqqəti hökumət və AXC-də II hökumətin fəaliyyəti üçün oxşar cəhət:

A) Bakı XKS ilə müharibə aparılması
B) Siyasi məhbuslara amnistiya elan edilməsi
C) Osmanlı dövləti ilə müqavilə imzalanması
D) Müəssislər Məclisinə seçkilərin keçirilməsi
E) Müstəqilliyinin Paris konfransı tərəfindən tanınması

**4.** Gəncə xanlığının İrəvan xanlığı ilə oxşar, Naxçıvan xanlığı ilə fərqli xüsusiyyətini müəyyən edin.

A) Qarabağ xanlığından asılı vəziyyətə düşməsi
B) Birinci Rusiya-Qacar müharibəsi dövründə işğal olunması
C) Qacar tayfası tərəfindən idarə olunması
D) Şəki xanlığına qarşı qurulmuş ittifaqda iştirak etməsi
E) Çuxursəəd bəylərbəyiliyinin ərazisində meydana gəlməsi

**5.** Hadisə-nəticə əlaqəsini müəyyən edin.

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | 1829-cu ildə məktəblər haqqında Əsasnamənin verilməsi | Cənubi Qafqazda müsəlman məktəblərinin yaradılmağa başlanması |
| B) | Əkinçi qəzetinin fəaliyyətə başlaması | İlk dəfə “Azərbaycan milləti” ifadəsinin gündəmə gəlməsi |
| C) | 1872-ci ildə Əsasnamə verilməsi | Şimali Azərbaycanda qəza məktəblərinin altıillik şəhər məktəblərinə çevrilməsi |
| D) | Leyli və Məcnun adlı bədii filmin çəkilməsi | Müsəlman dünyasında ilk bədii filmin ortaya çıxması |
| E) | “Sərgüzəşti-vəziri-xani-Lənkəran” əsərinin tamaşaya qoyulması | Cənubi Azərbaycanda milli teatrın əsasının qoyulması |

**6.** 1603-cü ildə Şah I Abbas, 1730-cu ildə Nadir xan tərəfindən azad edilən Azərbaycan şəhəri:




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**7.** Məntiqi ardıcıllığı tamamlayın.

1. Ağqoyunlu və Şirvanşahların qızılbaşlara qarşı ittifaq qurması
2. Şahdağ döyüşündə Səfəvilərin məğlub olması
3. ..........................................................................

A) Yaqub padşahın Ərdəbilə qoşun yeritməsi
B) İsmayılın qızılbaşlara rəhbərlik etməyə başlaması
C) Rüstəm Mirzənin Ərdəbili ələ keçirməsi
D) Şeyx Heydərin dostlarının İsmayılı Lahicanda gizlətməsi
E) Sultanəlinin Ərdəbildəki hakimiyyətinin başa çatması

**8.** Turukkilərin III minilliyin sonlarında Azərbaycanda mühüm siyasi qüvvəyə çevrilməsinə təsir göstərdi:

A) Assur dövlətinin Babillə müharibə nəticəsində zəifləməsi
B) İskit padşahlığının Midiya tərəfindən tabe edilməsi
C) Akkad dövlətinin kutilər tərəfindən süquta uğra-dılması
D) Aratta dövlət qurumunun yaradılmasında iştirak etmələri
E) Kuti və Lullubi dövlət qurumlarının süquta uğraması

**9.** Otto Bismarkın Avropada "güc tarazlığını" qorumaq üçün gördüyü tədbirlərdən *deyil:*

1. İtaliyada vahid dövlətin yaradılmasına kömək göstərdi
2. 1877-ci ildə Rusiyanın Osmanlıya hücumunda Rusiyanı müdafiə etdi
3. Fransada respublika rejimini dəstəklədi
4. Müxtəlif dövlətlərlə ittifaq qurdu

A) 1, 3
B) 2, 3
C) 3, 4
D) 1, 2
E) 2, 4

**10.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Osmanlının ərazi bütövlüyü dövlətlər tərəfindən təminat altına alındı
b. Böyük Britaniya bəzi ərazilər əldə etdi
c. Avstriya və Prussiya aparıcı rol oynayan dövlətlərdən idi
d. Rusiya Polşanın bir hissəsini ilhaq etdi
e. Qars, Ərdahan və Batum Rusiyaya ilhaq edildi

A) 1-a; 2-b,c; 3-d,e
B) 1-b,e; 2-d; 3-a
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a,d; 2-c,e; 3-b
E) 1-c,d; 2-e; 3-b

**11.** Xronoloji ardıcıllığı müəyyən edin.

1. Şimali Amerika koloniyalarında azadlıq mübarizəsinin başlanması
2. I Pavelin rus qoşunlarını Cənubi Qafqazdan çıxarması
3. Fransanın ilk dəfə respublika elan edilməsi
4. Çində özünütəcrid siyasətinin başlanması

A) 4, 1, 3, 2
B) 3, 1, 4, 2
C) 2, 1, 3, 4
D) 3, 2, 4, 1
E) 4, 2, 1, 3

**12.** Buxara şəhərinə aid xüsusiyyətləri müəyyən edin.

1. 999-cu ildə qaraxanlılar tərəfindən ələ keçirildi
2. XIV əsrin II yarısında paytaxt şəhərə çevrildi
3. Toxtamış xanın hücumlarına məruz qalmışdı
4. Sərbədarilər üsyanının əsas mərkəzi idi

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**13.** Avstriya-Macarıstan imperiyasının parçalanması nəticəsində meydana gəlməmişdir:




A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 5
E) 1, 4, 5

**14.** Rusiyada təhkimçiliyin rəsmiləşdirilməsinin başa çatdığı ildə baş vermişdir:
A) Fransada burjua inqilabının başlanması
B) İngiltərənin respublika elan olunması
C) “Müqəddəs birlik” ölkələri ilə Osmanlı arasında müharibənin başlanması
D) Panipat döyüşünün baş verməsi
E) Çində Mancur sülaləsinin hakimiyyətinin başlanması

**15.** Xronoloji ardıcıllığı müəyyən edin:

1. Nəcəf şəhərinin Əfşarlar dövlətinə birləşdirilməsi
2. Qəndəhar şəhərinin Əfşarlar dövlətinə birləşdirilməsi
3. Nadir şahın Dehli şəhərini ələ keçirməsi
4. Şeyx Mənsurun başçılığı ilə üsyanın başlanması

A) 1, 2, 3, 4
B) 4, 3, 1, 2
C) 2, 1, 4, 3
D) 3, 4, 2, 1
E) 2, 3, 1, 4

**16.** Qərb hunlarının başçısı Tanrı xan:

A) Azərbaycanın şimalında möhkəmləndikdən sonra Anadoluya da yürüş etmişdi
B) Alanları şərqə doğru sıxışdırmışdı
C) Ostqot kralını məğlub etmişdi
D) İlk dəfə olaraq Roma şəhərini mühasirəyə almağa müvəffəq olmuşdu
E) Qərbi Avropanın xeyli hissəsini Avropa Hun dövlətinə qatmışdı

**17.** Qeyd edilənlər aiddir:

- VIII əsrin I yarısında kral sarayının baş məmuru idi
- Dövləti kralın adından idarə edirdi
- Ərəb qoşunlarını məğlub etmişdi

A) Böyük Karl
B) Hlodviq
C) Karl Martel
D) Yustinian
E) Feodora

**18.** Mənbəni oxuyun və müəllifini müəyyən edin:

"Şirvan hakimləri şahın xəzinəsinə istədikləri qədər pul göndərirdilər. Bəzi hallarda bəylərbəyilər mərkəzin göstərişi olmadan vergilərin miqdarı və həcmini artırırdılar".

A) İ. Q. Herber
B) Kempfer
C) A. Oleari
D) J. Şarden
E) P. della Valle

**19.** Uyğunluğu müəyyən edin:

I. "Türk Ədəmi-mərkəziyyət" partiyası
II. "Müsavat" partiyası
III. "Difai" təşkilatı

a. 1906-cı ildə fəaliyyətə başlamışdı
b. M.Mövsümov və M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaradılmışdı
c. 1912-ci ildə proqramı çap edilmişdi
d." Qeyrət" partiyasının siyasi proqramından çıxış edirdi
e. Üzvləri Birinci Dünya müharibəsi illərində "müstəqil Azərbaycan" layihəsini hazırlamışdılar

A) I-b,c; II-e; III-d
B) I-d; II-c; III-a,e
C) I-a; II-e; III-b,d
D) I-a,e; II-b; III-c
E) I-e; II-b; III-a,c

**20.** Gəncə xanlığının mövcudluğu dövründə baş verməmişdir:

1. İbrahimxəlil xanın qətlə yetirilməsi
2. Şamaxı xanlığının Rusiya tərəfindən işğalı
3. Georgiyevsk müqaviləsinin imzalanması
4. General Sisianovun öldürülməsi
5. Qacarlar sülaləsinin devrilməsi

A) 1, 2, 3
B) 2, 4, 5
C) 1, 3, 5
D) 2, 3, 4
E) 1, 4, 5